*layihə*

# AZƏRBAYCAN RESPUBLİKASI
# NAZİRLƏR KABİNETİ

# QƏRAR № ____

**Bakı şəhəri** **« ___ » ___________ 201_-ci il**

## Əlaqəli hüquqların obyekti olan ifadan istifadəyə görə minimum tariflər haqqında

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 1583 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzv olması prosesi ilə əlaqədar qanunvericiliyin Ümumdünya Ticarət Təşkilatının tələblərinə uyğunlaşdırılması üzrə Tədbirlər Planı»nın 2-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi və yaradıcı təşkilatlarla razılaşdırılmış təkliflərinə uyğun olaraq aşağıdakı əlavələr təsdiq edilsin:

-İfadan (quruluşdan) istifadənin bəzi növlərinə görə ifaçılara ödənilən qonorarın minimum miqdarı haqqında Əsasnamə (Əlavə 1);

-İfanın (quruluşun) efirlə bildirişi və ya kabellə kütləvi bildirişinə görə ifaçılara ödənilən qonorarın minimum miqdarı (Əlavə 2);

-Fonoqrama daxil edilmiş ifanın (quruluşun) surətinin çıxarılmasına və digər formada istifadəsinə görə ifaçılara ödənilən qonorarın minimum miqdarı (Əlavə 3);

- Audiovizual əsərə daxil edilmiş ifanın (quruluşun), EHM üçün interaktiv tipli proqramın (multimedia) surətinin çıxarılmasına (o cümlədən sənaye məmulatlarında), audiovizual əsərin və EHM üçün proqramın nüsxələrinin kirayəyə verilməsinə görə ifaçıya ödənilən qonorarın minimum miqdarı (Əlavə 4);

- Fonoqrama və ya audiovizual əsərə daxil edilmiş ifanın (quruluşun) pullu və pulsuz giriş yerlərində kütləvi ifasına (göstərilməsinə) görə ifaçılara ödənilən qonorarın minimum miqdarı (Əlavə 5).

2. Bu qərarla təsdiq edilmiş minimum tariflərdən az olmamaq şərtilə qonorarın konkret miqdarı, ödəniş qaydası və müddəti ifaçı (və ya ifaya (quruluşa) hüquq sahibi), yaxud ifaçıların əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatla istifadəçilər arasında bağlanan müqavilə ilə müəyyən edilir.

3. İfadan (quruluşdan) istifadənin bu qərarla təsdiq edilmiş əlavələrdə nəzərdə tutulmayan digər növlərinə görə ifaçılara ödənilən qonorarın miqdarı ifaçı (və ya ifaya (quruluşa) digər hüquq sahibi), yaxud ifaçıların əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilat və istifadəçilər arasında bağlanan müqavilə ilə müəyyən edilir.

4. Bu qərar imzalandığı tarixdən güvvəyə minir.

Azərbaycan Respublikasının
Baş naziri Artur Rasi-zadə

Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 201_-ci il
___ tarixli _____ nömrəli qərarı ilə
təsdiq edilmişdir

Əlavə 1

# İfadan (qurluşdan) istifadənin bəzi növlərinə görə ifaçılara ödənilən qonorarın minimum miqdarı haqqında

# ƏSASNAMƏ

1. 2-5-ci əlavələrdə nəzərdə tutulan qonorarların minimum miqdarı, ifaçı (və ya ifaya (quruluşa) digər hüquq sahibi), yaxud ifaçıların əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilat ilə istifadəçi arasında bağlanmış müqavilədə başqa hal nəzərdə tutulmadıqda, həmçinin qonorarın miqdarı maraqlı tərəflər arasında mübahisə predmeti olmadıqda tətbiq edilir.

2. Bu Əsasnamədə və 2-5-ci əlavələrdə istifadə edilən terminlər xüsusi qeydlər istisna olmaqla aşağıdakı mənalara malikdir:

**«ümumi gəlir»** - audiovizual əsərin, fonoqram istehsalçısının, efir və ya kabel yayımı təşkilatının verilişinin, fonoqramın, efir və ya kabel yayımı təşkilatının verilişinin hər hansı üsulla, o cümlədən internet vasitəsi ilə istifadəsindən, yaxud istifadəyə hüquqların verilməsindən əldə olunan gəlir;

**«yayım zonası» -** efir və ya kabel yayımı təşkilatının yayımının həyata keçirildiyi ərazi;

«**buraxılış qiyməti»** - audiovizual əsərin, efir və ya kabel yayımı təşkilatının verilişinin videoyazısının, sənaye məmulatının və əsərlərin digər maddi daşıyıcılara yazılmış nüsxələrinin istehsalçı tərəfindən müəyyən olunmuş qiyməti (topdansatış qiyməti);

**«ilkin qonorar» -** audiovizual əsərin, fonoqramın, efir və ya kabel yayımı təşkilatının verilişinin yaradılmasında iştiraka görə ifaçının aldığı qonorarın (vergilərin və qanunvericiliklə müəyyən olunmuş digər məcburi ödənişlərin və ayırmaların tutulmasına qədər) miqdarı;

**«EHM üçün interaktiv tipli proqram»** («multimedia») - istifadəçinin EHM ilə qarşılıqlı əlaqəsinə (interaktiv) əsaslanan EHM-in (o cümlədən televiziya kompyuter oyunları üçün) bütün növ proqramlar;

**«statist»** - audiovizual əsərlərdə, tamaşalarda kütləvi səhnələrin iştirakçısı (xor, orkestr, kordebalet artistləri statislərə aid edilmir);

**«tamaşaçıların» (dinləyicilərin) sayının ən çox olduğu saatlar»** - müəyyən saat qurşağının 07.00-dan 09.00-a qədər (dinləyicilər üçün), iş günlərində 19.00-dan 23.00-a qədər, istirahət və bayram günlərində 17.00-dan 23.00-a qədər (tamaşaçılar və dinləyicilər üçün) yerli vaxtı.

3. Audiovizual əsərin, fonoqramın, efir və ya kabel yayımı təşkilatının verilişinin yaradılmasında iştiraka görə ifaçının ilkin qonorar almaq hüququ vardır.

İfaçı ilə audiovizual əsərə hüquq sahibi, fonoqram istehsalçısı, yaxud efir (kabel) yayımı təşkilatı arasındakı müqavilədə başqa hal nəzərdə tutulmamışdırsa, ifaçıya aşağıdakı hallarda da ilkin qonorar ödənilir:

- Azərbaycan Respublikasının informasiya maraqları naminə ifanın (quruluşun) xaricdə bu məqsəd üçün lazım olan həcmdə qeyri-kommersiya xarakterli istifadəsinə görə;

- efir (kabel) yayımı təşkilatının verilişinə daxil edilmiş ifaya münasibətdə həmin efir (kabel) yayımı təşkilatı tərəfindən ifanın efirlə ilk dəfə verilməsinə görə (kabellə kütləyə çatdırmaq üçün ilk bildiriş);

- xüsusi olaraq efirlə verilmək, yaxud kabellə kütləyə çatdırmaq üçün yaradılmış audiovizual əsərlərə, o cümlədən televiziya filimlərinə münasibətdə əsərin efirlə ilk dəfə verilməsinə görə (kabellə kütləyə çatdırmaq üçün ilk bildiriş).

4. «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq ifadan istifadəyə görə ifaya və quruluşa hüquq sahibi, yaxud ifaçıların əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatla istifadəçilər arasında müqavilə bağlanmalıdır.

Qonorar ödəyiciləri (istifadəçilər) ifanın (quruluşun) daxil edildiyi fonoqramların, verilişlərin, audiovizual və digər əsərlərin istifadəsinin dəqiq uçotunu aparmalı və ifaçılara, yaxud onların səlahiyyətli nümayəndələrinə ifalardan istifadə və əldə edilən gəlirin miqdarı haqqında məlumat verməlidirlər. Onlar qüvvədə olan qanunvericiliyə müvafiq olaraq, göstərilən məlumatların düzgünlüyünə və tamlığına görə məsuliyyət daşıyırlar.

5. Audiovizual əsər, fonoqram, efir və ya kabel yayımı təşkilatının verlişi yaradılarkən, yaxud efir üçün veriliş (kabel verilişi) hazırlanarkən ifa audiovizual əsərdən, fonoqramdan, verilişdən çıxarılarsa, onda ifanın (quruluşun) istifadəsinə görə ifaçıya qonorar ödənilmir.

6. «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Azərbaycan Respublikasının Qanununun 36-cı maddəsində müəyyən edilmiş məhdudiyyətlər istisna olmaqla ifadan (quruluşdan) bir neçə parça istifadə edilərsə, onda bu cür istifadə və ödəniləcək qonorarın miqdarı müəyyən olunmuş qaydada ifaçı (və ya digər hüquq sahibi) ilə razılaşdırılmalıdır.

7. İfası fonoqrama, efir və ya kabel yayımı təşkilatının verlişinə, audiovizual əsərə daxil edilmiş statistin ilkin qonorarı, əgər statist və fonoqram istehsalçısı, audiovizual əsərin hüquq sahibi və efir (kabel) yayımı təşkilatı arasında bağlanmış müqavilədə başqa hal nəzərdə tutulmamışdırsa, ifanın (quruluşun) bütün istifadə növlərinə görə hesablanmış qonorar kimi qəbul edilir.

8. Fonoqrama, audiovizual əsərə, EHM üçün proqrama, efir və ya kabel yayımı təşkilatının verilişinə daxil edilmiş ifadan (quruluşdan) müəyyən istifadə növünə görə qonorarın miqdarı və ödəniş qaydaları qanunvericiliyn müddəaları nəzərə alınmaqla tərəflərin razılığı ilə tənzimlənir.

Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 201_-ci il
___ tarixli _____ nömrəli qərarı ilə
təsdiq edilmişdir

Əlavə 2

# İfanın (qurluşun) efirlə bildirişi və ya kabellə kütləvi bildirişinə görə ifaçılara ödənilən qonorarın minimum miqdarı

1. Efir (kabel) yayımı təşkilatının verilişinə, yaxud efir (kabel) yayımı təşkilatının sifarişi əsasında və onun vəsaiti hesabına efir verilişi və ya kütləyə çatdırmaq məqsədilə kabellə bildiriş üçün xüsusi olaraq yaradılmış audiovizual əsərə daxil edilmiş ifanın efirlə (kütləyə çatdırmaq üçün kabellə təkrar bildirişi) təkrar verilməsinə görə qonorarın minimum miqdarı

| İstifadənin növləri | Qonorarın minimum miqdarı (ilkin qonorardan faizlə) |
|---|---|
| 1 | 2 |
| 1. Efirlə ilk verilişi (kütləyə çatdırmaq üçün kabellə ilk bildiriş) həyata keçirmiş efir (kabel) yayımı təşkilatı tərəfindən tamaşaçıların (dinləyicilərin) sayının ən çox olduğu saatlarda ifanın efirə ilk təkrar verilişi (kütləyə çatdırmaq üçün kabellə ilk təkrar bildirişi) | 20 |
| 2. Efirlə ilk verilişi (kütləyə çatdırmaq üçün kabellə ilk bildiriş) həyata keçirmiş efir (kabel) yayımı təşkilatı tərəfindən tamaşaçıların (dinləyicilərin) sayının ən çox olduğu vaxtlardan başqa günün istənilən vaxtında ifanın efirə ilk təkrar verilişi (kütləyə çatdırmaq üçün kabellə ilk təkrar bildirişi) | 10 |
| 3. Efirlə ilk verilişi (kütləyə çatdırmaq üçün kabellə ilk bildiriş) həyata keçirmiş efir (kabel) yayımı təşkilatı tərəfindən günün istənilən vaxtında verilişə daxil edilmiş ifanın və ya elmi, elmi populyar, yaxud sənədli audiovizual əsərlərin, həmçinin uşaqlar, gənclər və zəif eşidənlər üçün nəzərdə tutulmuş audiovizual əsərlərin efirə ilk təkrar verilişi (kütləyə çatdırmaq üçün kabellə ilk təkrar bildirişi). | 10 |
| 4. Efirlə ilk verilişi (kütləyə çatdırmaq üçün kabellə ilk bildirişi) həyata keçirmiş efir (kabel) yayımı təşkilatı tərəfindən günün istənilən vaxtında ifanın efirə hər bir sonrakı təkrar verilişi (kütləyə çatdırmaq üçün kabellə ifanın hər bir sonrakı təkrar bildirişi). | 15 |

| | |
|---|---|
| 5. Efirlə ilk verlişi (kütləyə çatdırmaq üçün kabellə ilk bildirişi) həyata keçirmiş efir (kabel) yayımı təşkilatı tərəfindən günün istənilən vaxtında verlişə daxil edilmiş ifanın və ya elmi, elmi populyar, yaxud sənədli audiovizual əsərlərin, həmçinin uşaqlar və gənclər üçün, yaxud zəif eşidənlər üçün nəzərdə tutulmuş audiovizual əsərlərin efirlə ilk təkrar verlişi (kütləyə çatdırmaq üçün kabellə sonrakı hər bir təkrar bildirişi) | 10 |

2. Audiovizual əsərə daxil edilmiş ifanı kabellə kütləyə çatdırmaq üçün bildirişin efirlə verilməsinə görə qonorarın minimum miqdarı. Efir və ya kabel yayımı təşkilatının verilişinə daxil edilmiş ifanı kabellə kütləyə çatdırmaq üçün bildirişin başqa efir və ya kabel yayım təşkilatı tərəfindən efir vasitəsilə sonrakı verlişinə görə qonorarın minimum miqdarı.

| İstifadənin növləri | Qonorarın minimum məbləği (verilişdən və əsərdən istifadə hüquqlarının verilməsinə görə əldə olunan ümumi gəlirdən faizlə |
|---|---|
| | |
| 1. Efir yayımı təşkilatının verilişinə daxil edilmiş ifanın başqa efir yayımı təşkilatı tərəfindən efirə verilməsi | 10 |
| 2. Efir yayımı təşkilatının verlişinə daxil edilmiş ifanın kabellə kütləyə çatdırılması üçün bildirişi | 10 |
| 3. Kabel yayımı təşkilatının verilişinə daxil edilmiş ifanın kabellə kütləyə çatdırılması üçün başqa kabel yayımı təşkilatı tərəfindən bildirişi | 10 |
| 4. Kabel yayımı təşkilatının verlişinə daxil edilmiş ifanın efirə verilməsi | 10 |
| 5. Audiovizual əsərə daxil edilmiş (kabellə kütləyə çatdırmaq üçün efirə veriliş, yaxud bildiriş üçün efir (kabel) yayımı təşkilatının sifarişi üzrə və onun vəsaitləri hesabına xüsusi yaradılan əsərlərdən başqa) ifanı kabellə kütləyə çatdırmaq üçün efirə verilməsi | 10 |

| | |
|---|---|
| 6. İfanın kabellə kütləvi bildirişi üçün efirə verilməsi, yaxud bildiriş üçün efir (kabel) yayımı təşkilatının sifarişi üzrə və onun vəsaitləri hesabına xüsusi yaradılan audiovizual əsərə daxil edilmiş ifanın kabellə kütləyə çatdırılması məqsədilə efirə verilməsi | 10 |

## İfaçılara ödənilən qonorarın tətbiq edilməsi qaydaları

1. Bu Əlavədə nəzərdə tutulan qonorar ödəyiciləri ifaçı (ifaya və ya quruluşa hüquq sahibi), yaxud ifaçıların əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilat, yaxud digər fiziki (hüquqi) şəxs ilə verilsin (audiovizual əsərin) yaradılmasına və ya ifadan istifadəyə görə onlarla müqavilə bağlamış audiovizual əsərlərin istehsalçıları, efir və kabel yayımı təşkilatlarıdır.

2. Efir və ya kabel yayımı təşkilatı ifaçının əvvəllər yazılmamış ifasının efir bildirişinə (kabellə kütləyə çatdırmaq üçün bildiriş), ifanın (quruluşun) sonrakı bildirişlərinə, ifanın bildiriş üçün yazılmasına, surətinin çıxarılmasına və onun efir və ya kabellə bildirişinə icazə almalı və ifadan hər növ istifadəyə görə ifaçıya qonorar ödəməlidir.

3. Bu Əlavənin 1-ci bəndində nəzərdə tutulan qonorarın miqdarı yalnız efir (kabel) yayımı təşkilatının, bu təşkilatın verilişinə, yaxud kütləyə çatdırmaq üçün efirə verilmiş və ya bildiriş üçün kabellə efir (kabel) yayımı təşkilatının sifarişi üzrə onun vəsaitləri hesabına xüsusi olaraq yaradılan audiovizual əsərə daxil edilmiş ifanın ilkin və təkrar bildirişinin (kütləyə çatdırmaq üçün kabellə ilkin və təkrar bildiriş) həyata keçirildiyi hallarda tətbiq olunur.

4. Bu Əlavənin 2-ci bəndində nəzərdə tutulan qonorarın miqdarı aşağıdakı hallarda tətbiq edilir:

a) efir yayımı təşkilatı digər efir və ya kabel yayımı təşkilatının verilişinə daxil edilmiş ifanın efir bildirişini həyata keçirdikdə;

b) kabel yayımı təşkilatı digər efir və ya kabel yayımı təşkilatının verilişinə daxil edilmiş ifanın kütləyə çatdırmaq üçün kabellə bildirişini həyata keçirdikdə;

c) efir (kabel) yayımı təşkilatı kütləyə çatdırmaq üçün kabellə efir bildirişi və ya bildiriş üçün efir (kabel) yayımı təşkilatının sifarişi üzrə onun vəsaiti hesabına xüsusi olaraq yaradılan əsərlər istisna edilməklə istənilən audiovizual əsərə daxil edilmiş ifanın efir bildirişini (kütləyə çatdırmaq üçün kabellə bildiriş) həyata keçirdikdə.

Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 201_-ci il
___ tarixli _____ nömrəli qərarı ilə
təsdiq edilmişdir

Əlavə 3

# Fonoqrama daxil edilmiş ifanın (quruluşun) nüsxəsinin çıxarılmasına və digər üsulla istifadəsinə görə ifaçılara ödənilən qonorarın minimum miqdarı

| İfaçıların kateqoriyası | Qonorarın miqdarı (faizlə) | | |
|---|---|---|---|
| | Fonoqramın hər nüsxəsinin buraxılış (topdansatış) qiymətindən | Fonoqram istehsalçısının ümumi gəlirindən fonoqram istehsalçısının icazəsi ilə (lisenziyası üzrə) hazırlanmış hər bir nüsxənin satışından | Fonoqram istehsalçısının ümumi gəlirindən onun hər növ istifadəsinə görə (icarə, surətçıxarma və s.) |
| 1 | 2 | 3 | 4 |
| 1. Solo proqramların ifaçıları | 5 | 8 | 10 |
| 2. Akkompanementlə solo proqramların ifaçıları (konsertmeystr və ya instrumental ansambl): | | | |
| 2.1. solist | 4 | 5 | 8 |
| 2.2. akkompaniator (instrumental ansambl) | 2 | 3 | 5 |
| 3. Akkompanementlə solo proqramların ifaçıları (orkestr, xor): | | | |
| 3.1. solist | 4 | 5 | 5 |
| 3.2. dirijor (xormeystr) | 2,5 | 3 | 3 |
| 3.3. orkestr (xor) | 2,5 | 5 | 5 |

| | | | |
|---|---|---|---|
| 4. Ansambllar üçün musiqili əsərlərin ifaçıları | 5 | 10 | 10 |
| 5. orkestr (xor) proqramlarının ifaçıları: | | | |
| 5.1 dirijor (xormeyster) | 3 | 7 | 7 |
| 5.2 orkester (xor) | 3 | 7 | 7 |
| 6. xorun iştirakı ilə opera və vokal-oratoriya əsərlərinin ifaçıları: | | | |
| 6.1. solist (bir solistin iştirakı ilə əsər ifa edildikdə) | 3 | 6 | 6,5 |
| 6.2 solistlər (2 və daha çox solistin iştirakı ilə əsərlər ifa edildikdə) | 4 | 8 | 8 |
| 6.3 dirijor | 3 | 6 | 6,5 |
| 6.4 xormeyster | 2,5 | 3,5 | 4,5 |
| 6.5. orkestr | 3 | 3,5 | 3,5 |
| 6.6. xor | 1,5 | 3 | 3 |
| 7. xorun iştirakı olmadan opera və vokal-simfonik əsərlərin ifaçıları: | | | |
| 7.1. solist (bir solistin iştirakı ilə əsər ifa edildikdə) | 5 | 8 | 8 |
| 7. 2. solistlər (2 və daha çox solistlərin iştirakı ilə əsər ifa edildikdə) | 6 | 8 | 10 |
| 7.3. dirijor | 4 | 7 | 8 |
| 7.4. orkestr | 3 | 6 | 6 |
| 8. pop və rok - qruplar | 6 | 10 | 10 |

**Qeyd:**

1. Bu Əlavədə nəzərdə tutulan qonorar ödəyiciləri fonoqram istehsalçılarıdır.

2. Bu Əlavədəki cədvəlin **«b»** və **«ç»** yarımbəndlərində nəzərdə tutulan qonorarın miqdarı audiovizual əsərin səsli tərkibinin, onun nüsxələrinin satışı və ya başqa cür istifadə edilməsi yolu ilə mülki dövriyyəyə daxil edilməsi üçün surəti çıxarılarkən də tətbiq edilir. Bu halda qonorar ödəyiciləri, əgər ifaçı və audiovizual əsərin istehsalçısı arasındakı müqavilədə başqa hal nəzərdə tutulmamışdırsa, audiovizual əsərlərin istehsalçıları hesab olunur.

3. Bu Əlavədə ansambllar üçün musiqili əsərlər böyük olmayan tərkib üçün (ifaçıların sayı 16-dək olduqda) elə əsərlər hesab edilir ki, bütün ifaçılar bərabər hüquqa malikdirlər. İki və daha çox alət üçün instrumental sonatalar, fortepianoda 4; 5; 8 əllə (o cümlədən uyğunlaşdırma) ifa üçün əsərlər də ansambllar üçün musiqili əsərlərə aiddir.

4. Proqramda iki və daha çox solist iştirak etdikdə 1-ci, 2.1-ci, 3.1-ci, 6.2-ci və 7.2-ci bəndlərdə nəzərdə tutulan qonorar solistlər arasında bərabər bölüşdürülür.

5. 4-cü bənddə nəzərdə tutulan qonorar ansamblın iştirakçıları arasında bərabər bölüşdürülür.

8-ci bənddə nəzərdə tutulan qonorar ifaçılar arasında ifaçıların özlərinin razılığı ilə müəyyən edilmiş nisbətdə bölüşdürülür. Qalan hallarda ifadan (quruluşdan) istifadənin bəzi növlərinə görə ifaçılara ödənilən qonorarın minimum miqdarı haqqında Əsasnamənin 8-ci bəndində nəzərdə tutulan prinsiplər tətbiq edilir.

6. Proqramda bir neçə ifaçı (kollektiv) iştirak etdiyi halda, bu Əlavədə nəzərdə tutulan qonorar hər bir ifaçının (kollektivin) iştirakına mütənasib olaraq bölüşdürülür.

Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 201_-ci il
___ tarixli _____ nömrəli qərarı ilə
təsdiq edilmişdir

Əlavə 4

# Audiovizual əsərin və ya audiovizual əsərə daxil edilmiş ifanın (quruluşun), EHM üçün interaktiv tipli proqramın (multimedia) surətinin çıxarılmasına (o cümlədən sənaye məmulatlarında), audiovizual əsərin və EHM üçün proqramın nüsxələrinin kirayəyə verilməsinə görə ifaçının qonorarının minimum miqdarı

| İstifadənin növləri | Qonorarın miqdarı (faizlə) |
|---|---|
| 1. Auidiovizual əsərin tam və ya bir hissəsinin kommersiya məqsədilə videoyazı formasında surətinin çıxarılması | 10-videoyazının hər bir nüsxənin buraxılış qiymətindən |
| 2. Audiovizual əsərin nüsxələrinin kirayəyə verilməsi | 10-audiovizual əsərin nüsxələrinin kirayəyə verilməsindən alınan ümumi gəlirdən |
| 3. İfanın (quruluşun), verilişin kadrlarının, ifaçının iştirakı ilə audiovizual əsərin elementlərinin fotoqrafik üsulla və ona anoloji üsulla sənaye məmulatlarında (suvenirlərdə, qalantereya predmetlərində, toxuculuq və trikotaj məmulatlarında, poliqrafiya məhsullarında və s.) surətinin çıxarılması | 2-məmulatın hər bir nüsxəsinin buraxılış qiymətindən |
| 4.EHM üçün interaktiv formada proqrama («multimedia») daxil edilmiş istənilən maşında oxunan formada proqramın surətinin çıxarılması | 8-proqramın hər bir nüsxəsinin buraxılış qiymətindən |
| 5.EHM üçün interaktiv formada proqramların («multimedia») nüsxələrinin kirayəyə verilməsi | 8-EHM üçün proqramların nüsxələrinin kirayəyə verilməsindən alınan ümumi gəlirdən |

İfaçılara ödənilən qonorarın miqdarının tətbiq edilməsi qaydaları

1. Bu Əlavədə nəzərdə tutulan qonorar ödəyiciləri audiovizual əsərin tam və onun bir hissəsinin kommersiya məqsədi ilə videoyazı formasında surətinin çıxarılmasını; audiovizual əsərlərin (videofilmlərin) nüsxələrinin kirayəyə verilməsini; ifanın (quruluşun), verilişin kadrlarının, ifaçının iştirakı ilə audiovizual əsərin elementlərinin sənaye məmulatlarında istənilən üsulla surətinin çıxarılmasını; EHM üçün proqramın hazırlanmasını; onların kirayəyə verilməsini həyata keçirən hüquqi və fiziki şəxslərdir.

2. Bu Əlavədə göstərilən üsullarla ifanın surəti çıxarıldığı halda ifadan (quruluşdan) istifadənin bəzi növlərinə görə ifaçılara ödənilən qonorarın minimum miqdarı haqqında Əsasnamənin 6-cı bəndinin müddəaları tətbiq edilir.

Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 201_-ci il
___ tarixli _____ nömrəli qərarı ilə
təsdiq edilmişdir

Əlavə 5

# Fonoqrama və ya audiovizual əsərə daxil edilmiş ifanın (quruluşun) pullu və ya pulsuz giriş yerlərində kütləvi ifasına (göstərilməsinə) görə ifaçılara ödənilən qonorarın minimum miqdarı

| İstifadənin növləri | Qonorarın miqdarı (verilişdən istifadə üçün hüquqların verilməsinə və əsərlərdən istifadəyə görə ümumi gəlirdən faizlə) |
|---|---|
| Audiovizual əsərlərin pullu və pulsuz giriş yerlərində kütləvi nümayiş etdirilməsi, efir və kabel yayımı təşkilatlarının verilişlərinin pullu giriş yerlərində kütləyə çatdırılması üçün bildirişi | 10 |

## İfaçılara ödənilən qonorarın tətbiq edilməsi qaydaları

1. Bu Əlavədə nəzərdə tutulan qonorar ödəyiciləri ifaçı (ifaya və ya quruluşa hüquq sahibi), yaxud ifaçıların hüquqlarını kollektiv əsasda idarə edən təşkilat ilə verilişin (audiovizual əsərin) yaradılmasına və ya onların ifalarından istifadəyə dair müqavilə bağlamış audiovizual əsərin istehsalçıları və efir, yaxud kabel yayımı təşkilatlarıdır.

2. Bu Əlavənin məqsədləri üçün pullu giriş yerləri-kinoteatrlar, kino-konsert zalları, klublar, mədəniyyət evləri, mədəniyyət sarayları, zabitlər evi, videosalonlar və digər müəssisələr hesab edilir. Belə yerlərdə audiovizual əsərlərin tamaşasına və ya efir (kabel) yayımı təşkilatlarının verilişlərinə görə tamaşaçılardan haqq alınır.

Pulsuz giriş yerləri ictimai istifadə yerləri hesab edilir ki, həmin yerlərdə audiovizual əsər nümayiş etdirildikdə tamaşaya görə müştərilərdən haqq alınmır. Restoranlar, kafelər və digər ictimai iaşə müəssisələri, mehmanxanalar, pansionatlar, istirahət evləri, sanatoriyalar, sərnişin nəqliyyatı müəssisələri və s. bu cür yerlərə aiddir.